Fəxrimiz

Yurdumuzun səfalı bölgələrindən olan Qəbələ Azərbaycana bir çox görkəmli şəxslər bəxş edib. Bu gün respublikanın ayrı-ayrı ali məktəblərində, MDB

ölkələrinin ali məktəblərində Qəbələnin tanınmış elm adamları, hüquq mühafizə orqanları işçiləri fəaliyyət göstərir. Bu şəxslər istər ölkə xaricində, istərsə də ölkə daxilində rayonumuzu layiqincə təmsil edirlər. Həmin şəxslərdən biri də Abdullayev Elşad Tofiq oğludur.

Abdullayev Elşad Tofiq oğlu 1981-ci ildə Qəbələ rayonu Bum qəsəbəsində anadan olmuşdur. 1987-1993-cü illərdə Qəbələ rayonu 3 saylı orta məktəbdə, 1993-1998-ci illərdə isə Qəbələ rayonu 1 saylı orta məktəbdə oxumuşdur. 1998-2002-ci illərdə Bakı Dövlət Universitetinin Kimya fakültəsində ali təhsil almışdır. 2002-ci ildə isə həmin fakültənin "Ətraf mühit kimyası" ixtisası üzrə magistratura pilləsinə daxil olmuşdur. 2004-cü ildə magistraturanı bitirərək Azərbaycan Milli Elmlər Akademiyasının Radiasiya Problemləri İnstitutunun aspiranturasının əyani şöbəsinə daxil olmuşdur. 2007-ci ildə aspiranturanı bitirmiş, 2008-ci ilin yanvarında hərbi xidmətə yollanmışdır. 2009-cu ildə Radiasiya Problemləri İnstitutunda kiçik elmi işçi vəzifəsinə təyin olunmuşdur. Daha sonra elmi işçi, böyük elmi işçi və aparıcı elmi işçi vəzifələrində çalışmışdır. Hazırda isə Bakı Mühəndislik Universitetində Pedoqoji fakültənin dekanı vəzifəsində çalışır.

Elşad Abdullayev 2011-ci ildə "Politsiklik aromatik karbohidrogenlər və fenolun duru sulu məhlullarının radiolizinin kinetik qanunauyğunluqları və mexanizmi" mövzusunda dissertasiya işi müdafiə etmiş və "Nüvə Kimyası" ixtisası üzrə kimya üzrə fəlsəfə doktoru elmi dərəcəsi, 2016-cı ildə isə bu ixtisas üzrə dosent elmi adı almışdır. Ümumilikdə 60-dan çox elmi əsəri (o cümlədən, 1 patent və 26 məqaləsi) çap edilmişdir. O, ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün "Kimya" fənni üzrə dərsliyin və "Müəllimlər üçün metodiki vəsait"in, Dövlət İmtahan Mərkəzinin 7-ci, 8-ci, 9-cu və 11-ci siniflər üçün nəşr etdiyi tapşırıqlar toplusunun müəllifidir. Bakı Mühəndislik Universitetinin Kimya-biologiya jurnalının baş redaktorudur. Həmçinin Dövlət İmtahan Mərkəzinin eksperti, Təhsil Nazirliyində Respublika fənn olimpiadalarının kimya fənni üzrə münsiflər heyətinin üzvüdür. Ailəlidir, üç övladı var.

Bu günlərdə o, təhsilin inkişafında xidmətlərinə, gənc nəslin təlim-tərbiyəsi sahəsində yüksək nailiyyətlər əldə etdiyinə görə "Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi" döş nişanına layiq görülmüşdür.

"Qəbələ"

Özümüzü pandemiyadan qoruyaq

Bildiyimiz kimi, dünyanı cənginə alan COVİD-19 bəlası hələ də can almağa davam edir və müxtəlif məhdudiyyətlərlə yaşamağımıza səbəb olur.

Ekspertlərin fikrincə, hazırda Azərbaycanda epidemioloji vəziyyət nəzarət altındadır. Buna baxmayaraq, qarşıda bizi soyuq fəsil gözləyir. Qış mövsümü gəlir. Bu mövsümdə respirator, tənəffüs yolu ilə yoluxan xəstəliklər, hava-damcı xəstəlikləri çoxalır. Ona görə də payız-qış mövsümü COVID-19 pandemiyası dövründə bir qədər problem yarada bilər. Belə ki, COVID-19 xəstəliyinə hər hansı bir respirator xəstəliyin qoşulması gözlənilə bilər. Bu, ilk növbədə qrip xəstəliyidir. Bu səbəbdən hazırda qrip əleyhinə vaksinasiya daha çox aktuallaşır. Həkimlərin fikrincə, qış mövsümündə havaların soyuması ilə əlaqədar olaraq daha çox qapalı məkanlara üz tutulur. Bu da həmin məkanlarda sıxlığın yaranmasına və hava-damcı yolu ilə ötürülən bir sıra infeksiyaların artmasına səbəb olur. Digər tərəfdən qış aylarında vitaminli, zülallı, minerallı qidaların azlığı immun sisteminin yüksək səviyyədə olmasına mane olur.

Son dövrlərdə yoluxma sayında azalma müşahidə edilsə də vətəndaşlarımız yenə də özünü mütləq şəkildə qorumalı və qapalı məkanlarda tibbi maskadan istifadə etməlidir.

Azərbaycan Respublikasının ərazisində COVID-19 ilə bağlı son vəziyyət

Ümumi		Bu gün 11.11.2021	
Ümumi yoluxanların sayı	554 096	Yeni yoluxanların sayı	1 774
Ümumi sağalanların sayı	516 013	Yeni sağalanların sayı	2 365
Aktiv xəstə sayı	30 711	Bugünkü test sayı	11 350
Ümumi test sayı	5 321 217	Bugünkü ölüm sayı	30
Ümumi ölüm sayı	7 372		

Qələbə ərəfəsində

İntellektual oyun

Zəfər gününə həsr edilmiş "Xəmsə" Milli İntellektual Oyunu üzrə rayon icra hakimiyyətinin təşkilatçılığı, Gənclər və İdman İdarəsinin iştirakı ilə yeniyetmələr arasında rayon birinciliyi keçirilmişdir.

"Xəmsə" Milli İntellektual Oyununun keçirilməsində əsas məqsədin gənclərin intellektual səviyyəsini, dünyagörüşünü, zehni inkişafını stimullaşdırmaq, onlar arasında bilik və elmin nüfuzunu artırmaq, Azərbaycanın zəngin milli mədəniyyətinin və tarixinin təbliği, eləcə də gənclərin daha geniş kütləsinin intellektual fəaliyyətə cəlb edilməsi, asudə vaxtın səmərəli təşkil olunması istiqamətində yeni üsullar tətbiq etməkdir.

Rayon mərhələsində yaşı 14-dən 17-dək olan 8 komandadan ibarət yeniyetmələr öz bilik-bacarıqlarını və intellektual səviyyələrini sınamışlar. Yarışın yekununda Nohurqışlaq kənd tam orta məktəbinin komandası I yer, Qəbələ şəhər 1 saylı tam orta məktəbinin komandası II yer və Vəndam qəsəbə 1 saylı tam orta məktəbinin komandası III yerə çıxmışdır.

Qalib komandalara rayon Gənclər və İdman İdarəsinin kubok və diplomları təqdim edilmişdir.

Dəyirmi masa arxasında

Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzində "Şanlı Zəfər" adlı tədbir keçirilib. Mərkəzin mütəxəssisləri, şəhid ailələri, qazilər və müharibə iştirakçılarının iştirak etdiyi tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səslənməsi ilə başlayıb. Şəhidlər bir dəqiqəlik sükutla yad edilib. Çıxış edənlər 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun döyüş meydanında qazandığı

zəfərdən, işğal altında olan torpaqlarımızın azad edilməsində qəhrəman şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin göstərdiyi şücaətlərdən söz açmışlar. Dəyirmi masa arxasında keçirilən tədbirdə müharibə iştirakçıları öz xatirələrini danışmışlar. Həmçinin bayram ərəfəsində mərkəzin əməkdaşları tərəfindən şanlı Zəfər günü münasibəti ilə tənha yaşayan şəhid ailələri, qazi və müharibə iştirakçıları evlərində ziyarət olunmuş və onlara hədiyyələr təqdim edilmişdir.

"Nizami ili"nə həsr olunmuş tədbir keçirilmişdir

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində dahi şair Nizami Gəncəvinin 880 illiyi münasibətilə tədbir keçirilmişdir. Böyük mütəfəkkirə həsr olunmuş tədbirdə Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin rəhbərliyi, mühəndis-pedaqoji heyət və tələbələr iştirak etmişdir. Tədbirdə giriş sözü ilə mərkəzin direktoru Qalib Nəbiyev çıxış edərək Nizami Gəncəvinin dünya ədəbiyyatı tarixinə verdiyi töhfələrdən söz açmış, mərkəzin tələbələrinin ifasında Nizami Gəncəvinin şeirləri səsləndirilmiş və səhnələşdirilmiş "Kərpickəsən kişinin dastanı" əsəri nümayiş etdirilmişdir.

QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

qəzetinə

2022-ci ilin birinci yarısı üçün abunə yazılışına başlanmışdır.

Yarımillik abunə qiyməti 15 manatdır.

Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.

Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.

«QƏBƏLƏ» qəzetinin reklam xidməti

205-19-14, 205-15-56

İTMİŞDİR

Qəbələ şəhər sakini **Zeynalov Xanlar Məhəmməd oğluna** məxsus 36 BB 313 nömrəli UAZ markalı minik maşınının **texniki pasportu** itdiyi üçün etibarsız sayılır.

Redaktor Azad Məmmədov.

TƏSİSÇİLƏR: Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: gabalanews@mail.ru

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149 VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində Kərimli Etibar Ələsgər oğlu Unibank CB mətbəəsində ofset üsulu ilə çap edilmişdir.

Dizayner Rais Rəşidov

Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.

Tiraj 1300